# Yusif Vəliyev – 90

## Məsuliyyət və qətiyyətlə

*Respublikanın xalq artisti Yusif Vəliyev haqqında qeydlərimizi aparatkən qeyri-ixtiyari A.M.Şərifzadə və M.Davudovanın yadigarı Firəngiz xanım Şərifovanın söhbətini xatırladıq.*

Bu iki sənətkar uzun illər Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında çalışmış, müxtəlif tamaşalarda tərəf-müqabili olmuşdular.

Xalq artisti Firəngiz Şərifova Yusif Vəliyevin böyük sənətkar olmaqla yanaşı son dərəcə məsuliyyətli, qətiyyətli, ciddi və mübariz bir adam olduğunu söyləyir, diqqət və qayğıkeşliyini sübut edən neçə-neçə dəlillər gətirirdi...

Yusif Abdulla oğlu Vəliyev 1917-ci il martın 22-də Dərbənddə anadan olmuşdur. Bakı Teatr Texnikumunu bitirmiş və həmin vaxtdan – 1936-cı ildən Şəki Dram Teatrında aktyorluq fəaliyyətinə başlamışdır. Burada o, Aydın, Oqtay, Elxan (C.Cabbarlı – «Aydın», «Oqtay Eloğlu», «Od gəlini»), Vaqif (S.Vurğun – «Vaqif») və s. obrazlar yaratmışdır.

Y. Vəliyev 1949-cu ildən ömrünün sonunadək Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında çıxış etmişdir.

Əsas rolları: Lenin (M.Şatrov – «İnqilab naminə»), Gəray bəy (S.Vurğun – «Komsomol poeması»), İmamyar (C.Cabbarlı – «Yaşar»), Ovod (E.Voyniç – «Ovod»), Rüstəm (Firdovsinin «Şahnamə» poeması əsasında – «Söhrab və Rüstəm») və s.

Yusif Vəliyev həm də bir sıra kinofilmlərə («Sən niyə susursan?», «Bir cənub şəhərində», «Nəsimi», «Tütək səsi», «Arxadan vurulan zərbə» və s.) çəkilmişdir.

1980-ci ilin 18 mart günü. Xalqımız özünün ən gözəl bayramına hazırlaşırdı. Böyük sənətkarımız Yusif Vəliyev isə həm də 4 gün sonra 63 yaşını qeyd edəcəkdi. Ancaq ömür vəfa etmədi. O nə bayramı qarşılaya bildi, nə də ad gününü. Doğrudur, dostlar, tanışlar, sənətsevərlər yenə yığışdı. Amma bu dəfə Yusif Vəliyevi təbrik etməyə yox, onu son mənzilə yola salmağa...

**B.ASLANOVA**